AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ

**PRESS-RELİZ**

**20 may 2024**

**Kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ vardır və belə iddia uydurma əqdə dair maddi hüquq normasının dispozisiya şərtləri əsasında həll edilməlidir**

***“Alqı-satqı müqavilələrinin əhəmiyyətsiz hesab edilməsi” tələbinə dair mülki iş***

**İşin halları**

Qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsinə əsasən cavabdehdən iddiaçının xeyrinə 53000 manat pul tutulmuşdur. Qətnamə qanuni qüvvəyə mindikdən sonrakı 10 gün ərzində cavabdeh mülkiyyətində olan iki əmlakı, bir ay sonra isə üçüncü əmlakı digər cavabdehə (arvadına) satmışdır.

İddiaçı həmin alqı-satqı müqavilələrinin etibarsızlığına dair birinci instansiya məhkəməsində tələb irəli sürmüş, göstərmişdir ki, mübahisə olunan əqdlərin rəsmiləşdirilməsində məqsəd borclunun müqavilələrin predmeti olan əşyaların mülkiyyətçisi kimi görünməməsini təmin etməklə tələbin həmin əmlaka yönəldilməsinin qarşısını almaqdır. Belə olan halda, alacağının borclunun əmlakı hesabına ödənilməsi imkanı aradan qalxır və tələbkar kimi hüquqları pozulur. İddiaçı cavabdehlər arasında bağlanmış 28.06.2018-ci il tarixli alqı-satqı müqavilələrinin əhəmiyyətsiz hesab edilməsinə dair qətnamə çıxarılmasını xahiş etmişdir.

Birinci instansiya məhkəməsi 21.02.2023-cü il tarixli qətnaməsi ilə iddianı rədd edərkən bir tərəfdən iddiaçının bu tələbi irəli sürməyə subyektiv hüququnun olmadığını bildirmiş, digər tərəfdən əqdlərin etibarsız sayılması üçün əsasların müəyyən edilmədiyini göstərmişdir.

Apellyasiya məhkəməsi birinci instansiya məhkəməsinin iş üzrə gəldiyi nəticə və əsaslandırma ilə razılaşmışdır.

Bundan sonra iddiaçı kassasiya instansiyası məhkəməsinə müraciət etmişdir.

## Kassasiya instansiyası məhkəməsinin mövqeyi

Ali Məhkəmə hesab etmişdir ki, iş üzrə maddi və prosessual hüquq normaları düzgün tətbiq edilməmişdir. Belə ki, Mülki Məcəllənin 340.1-ci maddəsinə görə uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir, uydurma əqd əhəmiyyətsizdir. Qərarda qeyd olunmuşdur ki, uydurma əqd, həqiqətdə heç bir hüquqi nəticə (hüquq və öhdəlik) əmələ gətirmək niyyəti olmadan, sırf görünüş üçün bağlanan əqddir. Bu halda əqdin tərəfləri hüquq və öhdəliklər yaratmağı arzu etmir, əksinə belə nəticənin əmələ gəlməməsi barəsində öz aralarında razılığa gəlmiş olurlar. Başqa sözlə, uydurma əqd, bir qayda olaraq sırf başqalarını (üçüncü şəxsləri) aldatmaq və həqiqətdə olmayan hüquq və öhdəlikləri sanki varmış kimi göstərmək məqsədilə bağlanır.

Məhkəmə tərkibi qeyd etmişdir ki, uydurma əqd belə məqsədlə bağlandığı üçün bu vəziyyətə görə mənafeyi pozulan hər bir şəxs həmin əqdin etibarsızlığına dair məhkəmədə iddia qaldırmaq hüququna malikdir. Mövcud vəziyyətdə iddiaçının subyektiv hüququnun olmaması barədə mövqe şəxsin məhkəmə müdafiəsi hüququna ziddir.

Kassasiya məhkəməsi Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin 1-ci hissəsinə, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci hissəsinə və Mülki Prosessual Məcəllənin 4.1-ci maddəsinə istinadən vurğulamışdır ki, kreditorun (tələbkarın) borclunun öz əmlakını icradan yayındırmaq məqsədilə bağladığı əqdlərin etibarsız sayılması barədə tələb irəli sürməyə subyektiv hüququ vardır və belə iddiaya uydurma əqdə dair maddi hüquq normasının dispozisiya şərtləri əsasında baxılmalıdır.

Bu zaman məhkəmə məsələyə formal yanaşmamalı, işin düzgün həlli üçün əhəmiyyət kəsb edən halları, o cümlədən mübahisə olunan əqdlərin rəsmiləşdirilməsi ilə hədəflənən hüquqi nəticənin nədən ibarət olmasını, başqa sözlə əqdin tərəflərinin müqavilədə göstərilən hüquqi nəticəni əmələ gətirmək istədiklərini, yoxsa belə nəticə arzulamadan müqavilələrin sadəcə üçüncü şəxslərdə yalnış təsəvvür yaratmaq məqsədilə bağladıqlarını, bu konteksdə müqavilələrin rəsmiləşdirildiyi dövrü, alıcının kimliyini və satıcı ilə münasibətlərinin nədən ibarət olmasını, əqdin tərəflərinin müqavilədən əvvəlki və sonrakı davranışlarını, əşyaların alıcının sahibliyinə verilib-verilməməsini, müqavilə bağlandıqdan sonra satıcının bu əşyalar üzərindəki faktiki sahiblik və idarəçiliyinin davam edib-etməməsini və digər xüsusatları aydınlaşdırmaqla Mülki Məcəllənin 340.1-ci maddəsinin şərtləri ilə işin müəyyən olunmuş halları arasında uyğunluğun olub-olmamasına hüquqi qiymət verməlidir.

Baxılan işdə apelyasiya məhkəməsi yuxarıda qeyd olunan halları nəzərə almamış, göstərilən maddi və prosessual hüquq normalarına uyğun bir araşdırma aparmamış, iddiaçının irəli sürdüyü dəlillərə lazımi şəkildə qiymət verməmiş, qətnaməni iş üzrə müəyyən edilmiş hallara, tərəflərin qarşılıqlı münasibətinə və qanunvericiliyə uyğun əsaslandırmamışdır.

**Yekun məhkəmə aktı:**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının qərarı ilə iddiaçının kassasiya şikayəti təmin olunmuşdur. Apellyasiya instansiyası məhkəməsinin 21 iyun 2023-cü il tarixli qətnaməsi ləğv edilmiş, iş təkrar baxılması üçün həmin məhkəməyə göndərilmişdir.

**Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə tərtib edilmişdirvə məhkəmə qərarının tərkib hissəsi olmamaqla, onun qısa mətnini təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş və tərtib edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər. Məhkəmə aktının tam mətni ilə tanış olmaq üçün aşağıdakı linkə keçid edə bilərsiniz.*

https://sc.supremecourt.gov.az/storage/Mulki/2024/2_52+29.01.2024.pdf

Qeyd: ★★★ (üç ulduz) – Azərbaycan Respublikası Ali Məhkəməsinin hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini müəyyən edən və inkişaf etdirən məhkəmə aktına təyin edilən fərqləndirici nişandır.